BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№4 Sosial-siyasi elmlər seriyası 2015*

UOT 343.2/7

# REGİONAL CİNAYƏTKARLIĞIN QARŞISININ ALINMASININ (PROFİLAKTİKASININ) ƏSAS İSTİQAMƏTLƏRİ VƏ XÜSUSİYYƏTLƏRİ

**N.T.ƏLİYEV**
***Azərbaycan Respublikası DİN-in Polis Akademiyası***
***naliyev10@mail.ru***

*Məqalə Azərbaycan Respublikasında regional səviyyə daxilində cinayətkarlığın ümumsosial və xüsusi kriminoloji profilaktikasının təşkilindən bəhs edir. Regional cinayətkarlığın ümumsosial və xüsusi kriminoloji profilaktikasının əsas prinsipləri müəyyən olunmuşdur. Məqalədə həmçinin regional cinayətkarlığın ümumsosial və xüsusi kriminoloji səviyyədə qarşısının alınmasına yönələn kompleks tədbirlər müəyyən olunmuşdur.*

**Açar sözlər:** regional cinayətkarlıq, sosial nəzarət, strategiya, regional profilaktika, regional cinayətkarlığın profilaktikasının əsas istiqamətləri, regional cinayətkarlığın ümumsosial və xüsusi-kriminoloji profilaktikası

Cinayətkarlıqla mübarizə bütün dövrlərdə, müxtəlif ictimai-iqtisadi formasiyalarda dövlət və cəmiyyət qarşısında həmişə mürəkkəb, çox zaman həlli mümkün olmayan problem kimi durmuşdur. Bu da təbiidir. Belə ki, cinayətkarlığın hətta qismən səviyyəsinin azaldılması böyük maliyyə, texniki, təşkilati və digər xarakterli məsrəflər tələb edir. Eyni zamanda bu çəkilən xərclərin cinayətkarlıq tərəfindən vurulan zərərdən, o cümlədən əvəz olunması mümkün olmayan insan həyatından qat-qat az olduğunu da qeyd etmək lazımdır.

Kriminoloji ədəbiyyatda «profilaktika», «qarşısını alma», «mübarizə», «önləmə» kimi müxtəlif ifadələrdən və terminlərdən istifadə edilir (12, 26; 24, 9). F.Ağayev, qeyd olunan bu anlayışların etimoloji analizi və leksik mənasının öyrənilməsinin onların eyniliyini göstərdiyini qeyd edərək yazır: «əgər alimlərin baxışları sintez edilərsə, cinayətkarlığın qarşısının alınması qanunla mühafizə edilən sərvətlərin təhlükəsizliyini təmin etməyə xidmət edən sosial idarəetmənin xüsusi növündən ibarətdir. Bu, məzmunu, cinayətkarlığı mümkün olan minimum səviyyədə saxlamaq məqsədilə onun səbəb və şəraitinin neytrallaşdırılmasına istiqamətləndirilən tədbirlərin kompleksinin mükəmməl bir sistemindən ibarətdir (1, 140).

Son illərdə «mübarizə», «profilaktika», «dəf olunma», «qarşısı alınma» və s. kimi ifadələrin əvəzində cinayətkarlığa aidiyyətdə daha çox və müəyyən dərəcədə qərb ədəbiyyatının təsiri altında «nəzarət» termini işlədilməyə başlanmışdır. İ.M.Rəhimov bu məsələyə toxunaraq yazır: «Son zamanlar bizə məlum olan

«savaş», «mübarizə», «ləğv edilmə» kimi sözlərin yerinə daha çox «nəzarət» termini işlənməkdədir. Hətta cinayət törətmiş şəxslərə bütün müraciət formalarını «cinayətkarlığa qarşı reaksiya» kimi vahid terminlə birləşdirmək cəhdləri də vardır» (4, 132).

Y.İ.Qilinski nəzarət dedikdə, əməllərin elmi zəmin və mövcud təcrübə nəzərə alınmaqla düşünülmüş kriminallaşdırılması və dekriminallaşdırılması, hüquq-mühafizə sisteminin fəaliyyətinin optimal və səmərəli təşkili, bu fəaliyyətə ictimaiyyətin cəlb edilməsi və s. başa düşüldüyünü göstərir (15, 308).

Bəzi müəlliflər «cinayətkarlıq üzərində nəzarət» termininin daha məqbul variantını - «sosial nəzarət» anlayışını işlədirlər. Məsələn, A.D.Antonov hesab edir ki, «sosial nəzarət» dedikdə cinayətkarlıqla mübarizədə aşağıdakı metodlar kompleksinin tətbiqi, istifadə edilməsi başa düşülür: hüquq normalarının, hüquqi və mənəvi dəyərlərin izahı və təbliği (informasiya təminatı); cinayətkarlara ədalətli cəzaların müəyyən olunmasına istiqamətlənmiş optimal sanksiyalar sisteminin işlənib hazırlanması və tətbiqi; sosial profilaktika - antisosial davranışın xarici mühitlə əlaqəli olan səbəb və şəraitlərinin aradan qaldırılması; tibbi-bioloji və mənəvi- psixoloji təsiretmə - normadan kənarlaşmaların daxili səbəblərinin dəf edilməsi (11, 87).

V.N.Kudryavtsev «mübarizə» sözünün digər terminlə əvəzlənməsinin cinayətkarlığa qalib gəlməyin mümkünsüzlüyü kimi də başa düşülə bildiyini qeyd edərək nəticə çıxarır ki, ona üstün gələ bilmədiyimiz üçün onu yalnız «nəzarət» altında saxlamaq, yəni hadisələrin gedişini izləmək, müşahidə etmək məcburiyyətində qalırıq (20, 36). Eyni mövqedən V.Mansurov da çıxış edir və qeyd edir ki, cinayətkarlığa nəzarət onun insanlar üçün dözüləcək həddə saxlanması deməkdir (3, 76-77).

Beləliklə, V.N.Kudryavtsev, İ.M.Rəhimov və digər tanınmış alimlər «mübarizə» termininin «nəzarət» termini ilə əvəz olunmasını bizim cinayətkarlığın qarşısının alınmasında acizliyimizə dəlalət etdiyini və ona ancaq «nəzarət» etmək iqtidarında olduğumuzu göstərdiyini, bunun da düzgün olmadığını və qəbuledilməzliyini qeyd edirlər.

Biz də bu müəlliflərə qoşulur və hesab edirik ki, belə bir mövqe qəbul edilməzdir, çünki bu mövqe ictimai təhlükəliliyi olduqca yüksək olan bu neqativ sosial-hüquqi hadisəyə passiv münasibəti bildirir və ən əsası, bizim istər bu gün, istərsə də gələcəkdə gücsüzlüyümüzün etirafı deməkdir.

Burada tibbi praktika ilə analogiya gətirmək yerinə düşərdi. Bəşəriyyət bütün xəstəliklərin kökünü kəsmək iqtidarında deyildir. Lakin tibb elmi təkcə vəziyyətə «nəzarət» etmir, həm də bu xəstəliklərlə aktiv mübarizə aparır. Bu sahədə artıq müəyyən uğur və nailiyyətlər də əldə olunmuşdur. Belə ki, bir çox epidemiyalar minimuma endirilmiş, bəzi xəstəliklərin kökü kəsilmiş, vəba, taun, vərəm və digər əvvəllər müalicəsi mümkün olmayan xəstəlikləri indi müalicə etmək mümkün olmuşdur. Fikrimizcə, hüquq praktikası, o cümlədən cinayətkarlıqla mübarizə də belə nəticəyə istiqamətlənməlidir (20, 36).

İ.M.Rəhimov, «nəzarətdə saxlamaq» ifadəsinin cinayətkarlıqla mübarizədə

cəmiyyətin acizliyini, passivliyini göstərdiyini əsas tutaraq «cinayətin qarşısının alınması» ifadəsinin işlədilməsinin daha düzgün olduğunu qeyd edir. Müəllifin fikrincə, «qarşısı alınma» «mübarizə» sözündən daha demokratik və mütərəqqidir (4, 132-133).

Son zamanlar əvvəllər hərbi leksikonda işlədilən «strategiya» terminindən də istifadə edilir. Kriminoloji ədəbiyyatda «strategiya» anlayışından geniş istifadə edilməyə başlandığını qeyd edərək, A.İ.Dolqova, bu terminə aşağıdakı tərifi verir: «Strategiya cinayətkarlıqla, onun ayrı-ayrı növləri ilə mübarizə məharətidir» (18, 416).

Fikrimizcə, «strategiya» termini «mübarizə» və ya «nəzarət etmə» terminləri ilə müqayisədə daha tam, dolğun və əhatəlidir. Çünki strategiya ümumi konsepsiyanın olmasını, təkcə yaxın deyil, həm də uzaq məqsədlərin və vəzifələrin, onlara nail olmağın metod, üsul və vasitələrinin, müxtəlif şəraitlərdə tətbiqi üçün yararlı olan kompleks tədbirlərin müəyyən edilməsini nəzərdə tutur. Eyni zamanda onu da qeyd etmək lazımdır ki, istənilən strategiya düz və ya səhvliyindən asılı olmadan müəyyən ideologiyadan çıxış edir ki, bu da son nəticədə onun uğurunu təmin edir və ya uğursuzluğa uğramasına gətirir.

Müasir dövrdə cinayətkarlığa, o cümlədən regional cinayətkarlığa qarşı effektiv əks təsir strategiyasının vacib ünsürlərindən biri cinayətkarlığın profilaktikasıdır.

V.Mansurov cinayətkarlığın profilaktikası ilə bağlı fikir və mövqelərin yaranması tarixinin çox qədim olduğunu qeyd edərək yazır: «Hələ e.ə. IV əsrdə yaşamış qədim yunan mütəfəkkiri Platon hesab edirdi ki, cəmiyyətin insanları cinayətlərdən çəkindirə biləcək qanunlara ehtiyacı vardır. Aristotel isə cəmiyyətin sağlam inkişafına mane olan hallara qarşı mübarizənin mühümlüyünü vurğulayırdı. Cinayətkarlığın profilaktikasına dair fikirləri XVIII əsrdə Monteksye «Qanunların ruhu haqqında» traktaktında, Ç.Bekkariya «Cinayətlər və cəzalar haqqında» kitabında daha da inkişaf etdirdilər» (3, 76).

Cinayətlərin profilaktikası bütün səviyyələrdə cinayətlərin səbəb və şəraitinin, onları doğuran, determinə edən amillərin müəyyən olunmasına, aradan qaldırılmasına və ya neytrallaşdırılmasına yönələn fəaliyyətdir. Cinayətlərin profilaktikası elə əslində cinayətkarlığın qarşısının alınması ifadəsinin sinonimidir (1, 144-145).

Cinayətkarlığa effektiv təsir üsulu kimi cinayətkarlığın profilaktikası müəyyən məqsəd və vəzifələrin, funksiyaların daşıyıcısı olduğunu qeyd edərək V.Mansurov, cinayətkarlığın profilaktikasının əsas məqsəd və vəzifələri qismində aşağıdakıları göstərir:

- cinayətlərin törədilməsinin səbəb və şəraiti ilə bilavasitə, birbaşa əlaqə və asılılıqda olan neqativ sosial, iqtisadi, hüquqi, psixoloji, təşkilati, texniki və sair xarakterli amillərin təsir dairəsinin məhdudlaşdırılması;
- cinayətlərin törədilməsinə səbəb ola biləcək halların, proseslərin, amillərin, şəraitlərin, konkret vəziyyətlərin mütəmadi əsasda üzə çıxarılaraq təhlili, bu əsasda cinayətlərin səbəblərinə və bu səbəblərin yaranma şəraitinə effektiv təsirin

əsas formalarının, metodlarının, üsul və vasitələrinin işlənib hazırlanması;

- cinayətkar şəxsiyyətin formalaşmasına səbəb ola biləcək sosial ziddiyyətlərin, münaqişələrin aşkarı və öyrənilməsi əsasında makro və mikro mühitin neqativ elementlərinə təsir edilməsi;
- cinayətləri törədə bilmə ehtimalı yüksək olan risk qrupunun müəyyən edilməsi, öyrənilməsi və onlara aktiv, sistemli, ardıcıl və fasiləsiz profilaktik təsirin göstərilməsi və sair (3, 77-78).

Məlum olduğu kimi, cinayətkarlığın qarşısının alınması cinayətkarlığın, müəyyən növ cinayətlərin və konkret cinayətlərin səbəb və şəraitinin aşkar edilməsi, zəiflədilməsi və ney- trallaşdırılması üzrə çoxsəviyyəli (ümumsosial, xüsusi-kriminoloji və s.) və məqsədyönlü tədbirlər sistemidir (6, 102-103).

Cinayətlərin ümumsosial qarşısının alınması sosial fəaliyyətin ən əhəmiyyətli və uzunmüddətli növləri ilə, iqtisadiyyatın inkişafına yönələn genişmiqyaslı tədbirlərlə, vətəndaşların hüquqlarının, azadlıqlarının, qanuni maraqlarının təmini, mədəniyyətin və mənəviyyatın inkişafı, qanunçuluğun möhkəmləndirilməsi, əhalinin sosial müdafiəsi ilə bağlıdır. Bu cür tədbirlər öz qarşısında cinayətlərin qarşısının alınması kimi xüsusi məqsədlər qoymurlar. Lakin onlar xüsusi profilaktikanın əsası olmaqla kriminoloji əhəmiyyət kəsb edirlər. Çünki onların cəmiyyətin sosial inkişafı vəzifələrinin həllinə istiqamətlənməsi müsbət nəticə verir (19, 57; 23, 7).

Eyni mövqedən B.S.Zahidov da çıxış edərək qeyd edir ki, «ümumsosial profilaktika, özündə iqtisadiyyat, sosial həyat, əxlaqi-mənəvi sahədəki ziddiyyətlərin həllinə istiqamətləndirilən tədbirləri əhatə edir. Onlar öz qarşısına cinayətkarlığın kökünün kəsilməsi məqsədini qoymur və cəmiyyətin daha qlobal problemlərinin həlli üçün tədbirlər həyata keçirir, lakin onların müvəffəqiyyətlə realizə olunması profilaktik səmərə verir» (8, 140-141).

K.T.Rostov regionlarda cinayətkarlığın səmərəli profilaktikasını təmin edən tədbirlər kompleksini təhlil edərək yazır ki, cinayətkarlıqla mübarizə tədbirlərinin əsas məzmununu ümum-sosial qarşısıalınma tədbirləri təşkil edir. kriminologiya elmi belə bir mövqedən çıxış edir ki, cinayətkarlığın ümumsosial qarşısının alınması dövlət və cəmiyyət tərəfindən həyata keçirilən və iqtisadiyyatın inkişafına, maddi rifahın yüksəlməsinə, hüquq qaydasının və qanunçuluğun möhkəmləndirilməsinə istiqamətlənmiş iqtisadi, sosial, siyasi, mədəni və təşkilati tədbirlər sistemidir (29, 288).

Ümumsosial xarakterli tədbirlər əhalinin rifah səviyyəsindən yüksəlməsinə; gəlirlərin diferensiasiyasının azalmasına; qanunçuluğun möhkəmlənməsinə; qanuna riayət edən əhali təbəqəsinin formalaşmasına; vətəndaşların sabahkı günə və öz qüvvələrinə inamını təmin etməyə; əhalinin aztəminatlı təbəqələrinin maddi təminat səviyyəsinin tədricən artmasına gətirməklə cinayətkarlığın kəmiyyət və keyfiyyət baxımından stabilləşməsinə kömək edə bilərlər (14, 112).

B.S.Zahidov narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərə aidiyyətdə cinayətlərin qarşısının alınmasına dair ümumsosial tədbirlərin dairəsini aşağıdakı kimi müəyyən edir: «1) insanların və

bütövlükdə cəmiyyətin maddi rifah halının və həyat şəraitinin yüksəldilməsi ilə əlaqədar olan iqtisadi münasibətlərin inkişaf etdirilməsi və daha da təkmilləşdirilməsi, həmçinin beynəlxalq tələblərə və standartlara cavab verə bilən texnoloji və texniki problemlərin həlli istiqamətində elmi-təcrübi tədbirlərin həyata keçirilməsi və bu prosesin təmin edilməsi; 2) vətəndaşların mədəni səviyyəsinin yüksəldilməsi, ümumi dünyagörüşün genişləndirilməsi, yetkinlik yaşına çatmayanların və gənclərin təhsil və təlim-tərbiyə işinin yaxşılaşdırılması, habelə onların əxlaqi-mənəvi cəhətdən daha da zənginləşdirilməsi; 3) cəmiyyətdə hüquq tərbiyəsinin və hüquqi maarifləndirmənin köməyi ilə insanların hüquq mədəniyyətinin səviyyəsinin yüksəldilməsi, hüquq düşüncəsinin yaxşılaşdırılması, hüquqi ideologiyanın formalaşdırılması və inkişaf etdirilməsi istiqamətində elmi-nəzəri tədbirlər şəbəkəsinin genişlənməsi və s.» (2, 401).

Göründüyü kimi, ümumsosial qarşısıalınma tədbirləri geniş diapazona malikdir. Cinayətkarlığın qarşısının alınmasının çoxaspektli, kompleks xarakteri məhz ümumsosial səviyyədə daha aydın və açıq şəkildə özünü göstərir (10, 124).

Cinayətkarlığın qarşısının alınması üzrə ümumsosial profilaktikanın, tədbirlərin güclü tərəfi məzmun etibarilə müxtəlif tədbirlərin (iqtisadi, sosial, siyasi, hüquqi, ideoloji və s.) qarşılıqlı əlaqəliliyi, onların bir-birini qarşılıqlı surətdə tamamlamaq əsasında antikriminogen təsir effektini təkcə cəmləməsi deyil, həm də onlara yeni, nəticəvilik baxımından daha yüksək keyfiyyət vermək iqtidarında olmasıdır. Məhz buna görə də cinayətkarlığın qarşısının alınmasının ümumsosial tədbirləri xüsusi-kriminoloji tədbirlərin, cinayətkarlığı doğuran kriminogen amillərin təsir sahəsinin məhdudlaşdırılması, neytrallaşdırılması, aradan qaldırılması ilə bağlı tədbirlərin əsasını, fundamentini təşkil edir (9, 122).

Məkan münasibətində cinayətkarlığın ümum-sosial profilaktikası daha spesifikdir. Belə bir profilaktikanın əsas vəzifəsi müəyyən ərazidə cinayətkarlıq kimi neqativ ictimai-hüquqi hadisə üçün «sahənin» maksimal dərəcədə daraldılmasına kömək edən sosial-iqtisadi şəraitin yaradılmasıdır (29, 289).

Regional səviyyədə həyata keçirilən ümumsosial profilaktika ölkənin ayrı-ayrı hissələrində, inzibati-ərazi vahidlərində sosial-iqtisadi şəraitin sağlamlaşdırılmasında mühüm rol oynayır. ümumsosial regional profilaktika bütün regionları əhatə etdiyi təqdirdə ümummilli miqyasda cinayətkarlıqla mübarizəyə əhəmiyyətli töhfə verə bilər.

Regional cinayətkarlığın ümumsosial profilaktikası, bir fəaliyyət növü kimi müəyyən prinsiplərə əsaslanmalıdır. Belə əsas prinsiplər yerli xüsusiyyətlərdən asılı olmadan ölkənin bütün hissələri üçün universal olmalıdırlar. Bu sahədə təcrübənin analizi və ümumiləşdirilməsi regional səviyyədə cinayətkarlığın ümumsosial profilaktikasının aşağıdakı əsas prinsiplərini formulə etməyə imkan verir:

- *Həyata keçirilən tədbirlərin qanuniliyi.* Bu prinsip qanunların, normativ-hüquqi aktların və yerli (region) səviyyədə qəbul edilən sənədlərin tələblərinə ciddi əməl olunmasını nəzərdə tutur.

Nəzərdən keçirilən sahədə hüquqi bazanın natamamlığı və ya zəif inkişafı bu prinsipin ardıcıl şəkildə həyata keçirilməsinə mane olur.

- *Həyata keçirilən tədbirlərin (fəaliyyətin) elmi əsaslılığı elmin iqtisadiyyat, sosiologiya, kriminologiya, iqtisadi coğrafiya və sair kimi sahələrində aparılan tədqiqatlarla formalaşan* sanballı elmi baza ilə təmin edilməlidir.

- *Profilaktik fəaliyyətin planlılığı.* Bu prinsip nəzərdə tutulan tədbirlərin məzmununun, tərkibinin və ardıcıllığının hökmən əvvəlcədən müəyyən olunmasında ifadə olunur. Nəzərdə tutulan regional planların ümumrespublika səviyyəsində həyata keçiriləcək profilaktik fəaliyyətlə qarşılıqlı şəkildə uzlaşması tələb olunur.

- *Ümumsosial profilaktika subyektləri arasında funksiyaların dəqiq paylanması.* Regionlarda ümumsosial profilaktikanı həyata keçirən subyektlərin dairəsi, onların funksiyaları, zaman və məkan etibarilə həyata keçirəcəkləri tədbirlər konkret olaraq müəyyən edilməlidir. Regional fəaliyyət planlarına daxil edilən hər bir tədbirin konkret icraçısı və bu tədbirin reallaşdırılması müddətləri dəqiq müəyyən edilməlidir.

- *Cinayətkarlığın ümumsosial profilaktikasının kompleksliliyi.* Komplekslilik müxtəlif strategiyaların istər zaman, istərsə də məkanca bir-birini tamamlaması deməkdir. Komplekslik ehtiyatların hesablanmasını, mövcud qüvvələrin yerləşdirilməsini, hadisələrin inkişafının və onların nəticələrinin xarakterinin proqnozlaşdırılmasını fərz edir ki, bu da məcmu halda cinayətkarlıqla mübarizənin planlaşdırılması, başqa sözlə, uyğun proqramların yaradılması deməkdir.

«Komplekslik» anlayışı son zamanlarda fəlsəfi-metodoloji, sosial-hüquqi və sair xarakterli xüsusi ədəbiyyatda tez-tez işlədilir.

Sosial-hüquqi problemlərin tədqiqi və analizində, onların həlli yollarının və istiqamətlərinin müəyyən edilməsində kompleks yanaşmadan istifadə zəruriliyi hamı üçün aydın olsa da, sosial-hüquqi tədqiqatların və praktiki qərarların qəbulunun bu vacib prinsipinin mahiyyəti, strukturu, elementləri, təyinatı və s. haqqında sabit və birmənalı təsəvvürlərin tam şəkildə formalaşdığını da söyləmək olmaz (5, 13-14).

Bəzi hallarda «kompleks» termininin «sistem» anlayışı ilə qarışdırılmasına, hətta eyniləşdirilməsinə də təsadüf etmək mümkündür.

P.P.Osipov və İ.A.İsmayılov düzgün olaraq göstərirlər ki, kompleks tədqiqatlara sistemlilik daxil olsa da komplekslilik bununla məhdudlaşmır. Müəlliflər xüsusi halda qeyd edirlər: «Çox vaxt kompleks yanaşma sistemli yanaşma ilə eyniləşdirilir. Lakin əslində kompleks və sistemli yanaşma bir-biri ilə qarşılıqlı bağlı olsalar da, onlar eyni deyildir. Məhz buna görə də onları qarışdırmaq olmaz. sosial-hüquqi tədqiqatların metodoloji prinsipləri kimi komplekslilik və sistemlilik bir neçə parametrlərə görə üst-üstə düşmür. əgər problemi maksimum dərəcədə sadələşdirsək, onda belə demək olar: kompleks yanaşma əsasında biz nə, harada və nəyə görə axtarmağı öyrənirik, sistemli yanaşma əsasında isə bunu necə, nə cür etməyi öyrənirik. sistemli yanaşmanı xarakterizə edərkən əsasən

mürəkkəb (sistemli) obyektin tam şəkildə qavranılmasına, kompleks yanaşmada isə diqqət tədqiqatın çox aspektliyinə, obyektin və o cümlədən onun elementlərinin müxtəlif tərəflərdən və müxtəlif mövqelərdən baxılmasına cəmləşdirilir» (27, 21).

Cinayətkarlığın qarşısının alınmasının kompleksliliyi regionda ümumsosial profilaktikanı həyata keçirən bütün subyektlərin koordinasiyası və qarşılıqlı əlaqəli fəaliyyətinin təminini, bu istiqamətdə həyata keçirilən fəaliyyətin sosial-iqtisadi, təşkilati-texniki, mənəvi-psixoloji və sair kimi kompleks tədbirlərdən ibarət olmasını nəzərdə tutur.

- *Ümumsosial profilaktikanın xüsusi-kriminoloji və fərdi profilaktika ilə uzlaşdırılması.*

- *Regionda cinayətkarlığın profilaktikası məqsədilə həyata keçirilən, sosial və iqtisadi vəziyyətin dəyişdirilməsinə yönələn metodların demokratikliyi.* Bu istiqamətdə həyata keçirilən tədbirlər, fəaliyyət planları pozitiv xarakter daşımalıdır (iqtisadi və sosial vəziyyətin sabitləşdirilməsi, regionda ekoloji durumun, mənəvi-psixoloji şəraitin sağlamlaşdırılması və s.). Məqsədə çatma vasitələrinin seçimi zamanı əhalinin əhəmiyyətli hissəsinin iqtisadi, ekoloji, sosial maraqlarına zərər vuran vasitələrdən istifadə edilməməyə səy göstərilməlidir.

Vəzifələrin, səlahiyyətlərin və resursların uyğunluğu hüquq-mühafizə orqanları qarşısında regionda cinayətkarlığın qarşısının alınmasına istiqamətlənən vəzifələr qoyularkən uyğun səlahiyyətlərin genişləndirilməsi, dəqiqləşdirilməsi (məsələn, qüvvədə olan qanunvericilikdə dəyişikliklərin və əlavələrin edilməsi), həmçinin zəruri olan maddi-texniki resursların ayrılması deməkdir. Yəni vəzifələr regionda cinayətkarlığa qarşıdurma sahəsində real vəziyyətə, orada kriminal vəziyyətin stabilləşməsi məqsədilə kriminogen amillərə effektiv təsir imkanlarına uyğunlaşdırılmalıdır. Bu istiqamətdə qarşısıalınma siyasətinin mühüm vəzifəsi - bu vəzifələrin həlli üçün zəruri olan səlahiyyətlərin, resurs təminatının, üzərlərinə qoyulan vəzifələrin uyğunluq dərəcəsinin hesablanması metodikaları işlənib hazırlanmalıdır (9, 129).

Cinayətkarlığın qarşısının alınması, profilaktikası sahəsində hüquq-mühafizə orqanlarının imkanlarını həddən artıq yüksək qiymətləndirmənin qaçılmaz surətdə səhvlərə gətirməklə son nəticədə səmərəsiz ola biləcəyi də yaddan çıxarılmamalıdır. Cinayətkarlığın qarşısının alınması üzrə olduqca mürəkkəb və çoxaspektli işin tam şəkildə yalnız hüquq-mühafizə orqanlarının üzərinə qoyulması yanlışdır və bu orqanların imkanlarının həddən artıq şişirdilməsi, bu məsələdə ifratçılığa yol verilməsi deməkdir. İfratçılıq ondan ibarətdir ki, «hüquq-mühafizə orqanlarının fəaliyyətindəki nöqsanlar cinayətkarlığın birbaşa səbəbi kimi göstərilir. Buradan belə nəticə çıxır ki, əgər bu nöqsanlar aradan qaldırılarsa, cinayətkarlığı tamamilə aradan qaldırmaq mümkündür. Başqa sözlə desək, cinayətkarlığın ləğv edilməsi hüquq-mühafizə orqanlarının birmənalı və birbaşa vəzifəsi hesab edilməklə, eyni zamanda, bu fəaliyyətin zəifliyi ilə əlaqələndirilir. Bu mövqe cinayətkarlığın və onun səbəblərinin sosial təbiətinin dərk olunmaması ilə bağlıdır» (2, 254).

- *Ümumdövlət maraqlarının regional maraqlardan üstünlüyü.* Müəyyən ərazi vahidi qismində çıxış edən hər bir region vahid bir dövlətin tərkib hissəsi olduğundan cinayətkarlığın regional ümumsosial profilaktikası sahəsində siyasət bütün ölkə ərazisində ümummilli miqyaslarda həyata keçirilən konsepsiyalara, proqramlara və planlara əsaslanaraq qurulmalıdır. Regional səviyyədə həyata keçirilən tədbirlər ümumdövlət səviyyəsində işlənilən kompleks tədbirlərə uyğun olmalıdır.

- *Hər bir konkret regionun spesifik xüsusiyyətlərinin nəzərə alınması.* Cinayətkarlığın ümumsosial profilaktikası üzrə ümumdövlət strategiyası ölkənin hər bir hissəsində konkretləşdirilməlidir. Kompleks tədbirlər regionun bütün ərazilərində, lakin onun hər bir hissəsinin yerli spesifikası nəzərə alınmaqla həyata keçirilməlidir.

- Regionda həyata keçirilən tədbirlərin və planların digər regionlarda keçirilən tədbirlərlə uzlaşdırılması. cinayətkarlığın profilaktikasına istiqamətlənmiş siyasət, bütün ərazi subyektlərində vahid prinsiplər və razılaşdırılmış yanaşmalar əsasında qurulmalıdır (29, 290-292).

Strateji qərarların qabaqlayıcı (önləyici) xarakter daşıması prinsipi o deməkdir ki, regionda cinayətkarlığın qarşısının alınması üzrə kompleks tədbirlər «sınaqlar və səhvlər» metodu vasitəsilə həll edilməməli, cinayətkarlığın elmi əsaslı analizi, onun meyllərinin üzə çıxarılması və proqnozu əsasında müəyyən edilən strateji məqsədlər nəzərə alınmaqla reallaşdırılmalıdır. Bu prinsip regionda kriminal vəziyyətin proqnozlaşdırılması və kriminoloji proqnoza əsaslanan cinayətkarlığın profilaktikası üzrə tədbirlər sistemi vasitəsilə reallaşdırılır. Praktikada kriminoloji proqnozlaşdırma gələcəkdə təşəkkül tapacaq kriminal vəziyyətin aydınlaşdırılmasına, proqnoz əsasında cinayətkarlığın bu və ya digər təzahürlərinə əks təsir tədbirlərinin müəyyən edilməsinə, cinayətkarlığın qarşısının alınmasına istiqamətlənmiş zəruri idarəetmə qərarlarının işlənib hazırlanması və qəbuluna gətirilir (9, 130).

Sadalanan prinsiplər regional cinayətkarlığın ümumsosial profilaktikasının əsasını təşkil etməlidir. Belə fəaliyyətin obyektləri qismində hər bir regionun sosial-iqtisadi vəziyyəti çıxış edir. Bu vəziyyət isə bir sıra parametrlərlə səciyyələnir ki, onları da aşağıdakıları xarakterizə edən bir neçə qrupa bölmək olar: regionun ümumi iqtisadi vəziyyəti (təsərrüfat sahələri, xarici iqtisadi əlaqələr); bu inzibati-ərazi vahidinin maliyyə durumu; əhalinin rifah səviyyəsi (real gəlirləri, istehlak və əhaliyə xidmət səviyyəsi, təhsil, əmək məşğulluğu); bu ərazidə ekoloji şərait; mədəniyyətin, ictimai mənəviyyatın vəziyyəti; millətlərarası münasibətlər; vətəndaşlar tərəfindən öz hüquqlarını reallaşdırma imkanları, əhalinin, onların maraqlarını təmsil edən təşkilatların regionda iqtisadi vəziyyətə, hakimiyyət orqanlarının sosial siyasətinə təsir dərəcəsi (29, 292-293).

Regional cinayətkarlığın qarşısının alınmasına istiqamətlənmiş ümumsosial tədbirlər qismində aşağıdakıları göstərmək olar:

- cəmiyyətin kriminallaşdırılmasını istisna edən və ya məhdudlaşdıran sosial-iqtisadi və hüquqi şəraitin yaradılması;

- kriminogen təsirə malik səbəb və şəraitlərin (sərxoşluq, narkotizasiya, nəzarətsiz miqrasiya, əhalinin aşağı həyat səviyyəsi, sosial-mənzil məsələləri) aradan qaldırılması; alkoqolizm və narkomaniyadan pulsuz məcburi müalicə üzrə tibbi-psixoloji reabilitasiya və müalicə müəssisələri şəbəkəsinin genişləndirilməsi;

- yaşamaq üçün vasitələrdən məhrum olan, valideynsiz və atılmış uşaqlar üçün internat məktəblərinin, sosial-reabilitasiya müəssisələrinin maddi bazasının yüksəldilməsi; çoxuşaqlı və az təminatlı ailələrin yaşayış və məişət şəraitinin yaxşılaşdırılması üzrə tədbirlər kompleksinin həyata keçirilməsi;

- uşaq nəzarətsizliyi və gənclərin asudə vaxt keçirmə problemlərinin ərazi üzrə gənclər və yeniyetmələr klublarının (maraq dairələri üzrə yaradıcılıq dərnəkləri, idman şöbələrinin) yaradılması yolu ilə həll edilməsi. Məktəblərin himayəyə götürmə institutunun bərpası;

- mürəkkəb həyat şəraitinə düşmüş və ya zorakılığa məruz qalmış yeniyetmələrə təxirəsalınmaz tibbi, hüquqi, psixoloji və maliyyə yardımının göstərilməsi;

- yeniyetmə və gənclərin, işsizlərin və evsizlərin, qaçqınların və məcburi köçkünlərin, əvvəllər məhkum olanların və daimi gəlir mənbəyi olmayanların sosial məşğulluğunun təmini üzrə tədbirlərin işlənib hazırlanması və reallaşdırılması;

- daimi yaşayış yerindən məhrum olmuş və məşğulluğu olmayan şəxslərə sosial-psixoloji yardım üzrə müəssisələr şəbəkəsinin inkişafı ilə əlaqədar tədbirlərin hazırlanması və həyata keçirilməsi;

- gənclərin mədəni və mənəvi-ideoloji tərbiyəsi məsələlərinin dövlət tərəfindən tənzimlənməsi və maliyyələşdirilməsi; Azərbaycan cəmiyyətinin təşəkkül tapmış, tarixi mədəni ənənələrinə əsaslanmış, gənclərin tərbiyəsi üzrə konseptual proqramların yaradılması;

- əhalinin hüquqi mədəniyyətinin yüksəldilməsi və qanunariayət həyat tərzinin təbliği istiqamətində kütləvi informasiya vasitələrinin fəaliyyətinin aktivliyinin daha da artırılmasının təmini (məsələn, sosial reklam şəbəkəsi vasitəsilə);

- kütləvi informasiya vasitələrində qanuna riayət edən vətəndaş simasının cəlbediciliyinin təbliği, kriminal mühitin nüfuz sahiblərində, dəfələrlə məhkum olunmuş şəxslərdə həyat perspektivlərinin olmamasının konkret nümunələrlə nümayiş etdirilməsi. Kütləvi informasiya vasitələrində hüquq-mühafizə orqanlarının cinayətkarlıqla mübarizə sahəsində müsbət təcrübəsinin işıqlandırılması;

- əhalinin və hüquq-mühafizə orqanlarının kriminogen amillərin dəf olunması və aradan qaldırılması üzrə səylərinin birləşdirilməsi, axşam saatlarında könüllülərdən ibarət post-patrul xidmətinin təşkili, vətəndaşların belə fəaliyyətdə aktiv iştirakının maddi cəhətdən mükafatlandırılması və kütləvi informasiya vasitələrində işıqlandırılması;

- hər bir konkret region üzrə sosial həyatın bütün sahələrində intizamın və məsuliyyətin yüksəldilməsi;

- xarici ölkələrin təcrübəsi nəzərə alınmaqla ictimai yerlərdə, yeraltı keçidlərdə videonəzarətin təşkili və s.

Ümumsosial xarakter daşıyan profilaktik fəaliyyətin daha bir əsas istiqaməti yaşamaq üçün qazanc mənbələri olmayan və ya olduqca az olan, ictimai faydalı sosial əlaqələri itirən şəxslərə münasibətdə xeyriyyə tədbirlərindən fəal istifadəyə əsaslanmalıdır. Bu işdə ictimaiyyətin rolunu yüksəltmək lazımdır. Yeni şəraitlərdə narkomaniya, sərxoşluq, fahişəlik, tüfeylilik, cinayətkarlığı qidalandıran hadisələr kimi sosial anomaliya formaları ilə mübarizə tədbirlərinin daha fəal surətdə aparılması zəruridir.

Cinayətkarlığın profilaktikası sahəsində ictimai yardım, xeyriyyə fondlarının yaradılması ilə bağlı hərəkat birmənalı şəkildə dəstəklənməlidir.

Müasir mərhələdə regional cinayətkarlığa qarşıdurmada səylərin gücləndirilməsində əhalinin hüquqi fəallığının köklü surətdə canlandırılmasına böyük əhəmiyyət verilməlidir. Bu zaman iqtisadi stimulların, sosial və hüquqi təminatların rasional şəkildə bir-birini tamamlanması ilə təmin edilməlidir. cinayətkarlıqla mübarizədə əhalinin iştirakının yeni, sərt tənzimlənməmiş formaları işlənib hazırlamalı və həyata keçirilməlidir.

Hazırda asudə vaxt keçirmə sahəsindən çox danışılır və bu doğrudan da mühüm məsələdir: bu vaxtadək hüquq qaydalarını pozan yüzlərlə yeniyetmələr asudə vaxtın keçirilməsinin təşkilati, mütəşəkkil formaları ilə əhatə olunmamışlar. Bu boşluğu istehlak xarakterli asudə vaxt keçirmə ilə deyil, yaradıcılıq, sosial-fəal məşğuliyyətlə doldurulmasına nail olmaq lazımdır.

Yeniyetmələr və gənclər tərəfindən törədilən cinayətlərin kəmiyyət və keyfiyyət parametrlərində pozitiv dəyişmələrinə nail olmağın əsasını təhsil sisteminin yenidən qurulması təşkil etməlidir ki, bunda da məqsəd yeniyetmə oğlan və qızların təhsil səviyyəsinin yüksəldilməsi, onlarda mənəvi keyfiyyətlərin, hüquqi biliklərin inkişafıdır. Bu xüsusilə aktualdır. Belə ki, gənclər tərəfindən törədilən cinayətlərin xeyli hissəsi hüquqi savadsızlıq, mənəvi kasadlıqla bağlıdır. Böyük şəhərlərdə sosial yardıma ehtiyacı olan yeniyetmələr üçün nəzdində yataqxana olan xüsusi sosial-psixoloji mərkəzlər yaradılmalıdır.

Regional cinayətkarlığın qarşısının alınmasına istiqamətlənən tədbirlər sisteminin daha bir səviyyəsi xüsusi-kriminoloji profilaktikadır.

Cinayətkarlığın xüsusi-kriminoloji qarşısının alınması - xüsusi dövlət və qeyri-dövlət orqanlarının, həmçinin onların nümayəndələrinin cinayətlərin determinantlarının aşkarı və aradan qaldırılması, kriminal davranışlı şəxslərə korrektə edici pozitiv təsir göstərmə, hazırlanan və planlaşdırılan, habelə başlanılan və davam edən cinayətlərin önlənməsi üzrə fəaliyyətidir.

Eyni zamanda cinayətlərin xüsusi qarşısının alınması haqqında məsələnin elmi ədəbiyyatda birmənalı şərh olunmadığı da qeyd edilməlidir.

Məsələn, A.B.Saxarov xüsusi-kriminoloji qarşısıalınmanı ümumsosial qarşısı alınmadan daha konkretliyi ilə fərqləndiyini qeyd edərək bu tədbirlərin əsas təyinatının kriminogen amillərin aradan qaldırılmasına yönəldiyini göstərir (30). V.Mansurov qeyd edir ki, «cinayətkarlığın xüsusi kriminoloji profilakti-

kası konkret kriminogen faktorların ləğv edilməsi, ilk dəfə, təkrar cinayət törətmiş və ya cinayət törədə biləcək şəxslərin kriminallaşmasına qarşı yönəldilmiş tədbirlər sistemidir» (3, 81).

Q.M.Minkovski xüsusi tədbirlərə konkret şəxslər tərəfindən cinayətlərin törədilməsinin, habelə residivin qarşısının alınması üzrə tədbirləri, cinayətlərin törədilməsini asanlaşdıran səbəb və şəraitlərin ləğvi üzrə tədbirləri aid edir. Müəllif, xarakter etibarilə bu tədbirləri texniki, prosessual, təşkilati, əməliyyat-taktiki və sair tədbirlərə bölür (25, 17).

F.Y.Səməndərov göstərir ki, «xüsusi kriminoloji səviyyədə tədbirlər cinayətkarlığın, yaxud konkret cinayətlərin səbəblərinin aradan qaldırılmasına, onların neytrallaşdırılmasına yönələn xüsusi tədbirlərin məcmusu ilə xarakterizə olunur... Ümumsosial səviyyədə həyata keçirilən tədbirlərdən fərqli olaraq xüsusi kriminoloji xarakterli tədbirlər xeyli dərəcədə subyektiv xarakterlidir. Buradan da xüsusi kriminoloji xarakterli tədbirlərin daha çox idarə olunmasına ehtiyac yaranır. Xüsusən qərar qəbul etmək üçün spesifik meyarlardan, sosial faydalılığı və bu fəaliyyətin səmərəliliyini dəyərləndirmək üçün xüsusi qiymətləndirmə sistemindən istifadə etmək nəzərdə tutulur» (6, 106).

Xüsusi-kriminoloji tədbirlər məhz cinayətkarlığa qarşıdurma üçün, o cümlədən müxtəlif növ cinayətlərə və cinayətkar davranış tiplərinə, ictimai həyatın müxtəlif sahələrinə, sosial qruplara, təsərrüfat sahələrinə aidiyyətdə işlənib hazırlanır və həyata keçirilir. Bu tədbirlər əhalinin sosial təbəqələrinə və qruplarına xüsusi, yəni xüsusi biliklər və hazırlıq tələb edən metodların və təsir vasitələrinin tətbiqini nəzərdə tutur (məsələn, sosial risk qruplarının üzə çıxarılması və neytrallaşdırılması) (17, 12).

Cinayətlərin qarşısının alınmasının ümum-sosial tədbirlərini tamamlayan xüsusi-krimi- noloji tədbirlər məqsədyönlü, xüsusiləşmiş olmaqla, istənilən halda müəyyən obyektlərə və subyektlərə, həyata keçirilmə müddətlərinə və sairəyə görə zaman və məkan etibarilə lokallaş- dırılmışdır (9, 123).

Eyni zamanda nəzərə alınmalıdır ki, qarşısıalınma effekti ziddiyyətlidir və ona görə də heç bir məhdudiyyət olmadan, «nə qədər çox olarsa o qədər yaxşıdır» prinsipi ilə ümumi və ya xüsusi tədbirləri həyata keçirmək düzgün deyildir. Buna əhəmiyyət verməmək və nəzərə almamaq tədqiqatçını əsl profilaktik xarakterli, kriminoloji əhəmiyyət kəsb edən ziddiyyətlərin analizindən uzaqlaşdırır və bununla da cinayətkarlığın qarşısının alınmasını metodoloji əsaslardan məhrum edir (26, 12).

Təbii ki, müasir dövrdə yalnız ümumsosial tədbirlər vasitəsilə sosial-iqtisadi, hüquqi, psixoloji, təşkilati, texniki və sair xarakterli amillərin kriminogen təsirinin aşağı salınması - yerinə yetirilməsi çətin və demək olar ki, mümkün olmayan vəzifələrdəndir. Məhz buna görə də regional cinayətkarlıqla bağlı xüsusi-kriminoloji qarşısı alınma tədbirlərinin işlənib hazırlanması bu gün üçün mühüm əhəmiyyət kəsb edir.

Xüsusi-kriminoloji tədbirlər qismində: 1) regionda cinayətkarlığın səviyyəsi, strukturu və dinamikası haqqında informasiyanın öyrənilməsi və analizi; 2) ay-

rı-ayrı ərazilərə, obyektlərə və s. profilaktik təsir metodlarının, üsul və vasitələrinin hazırlanması və onların həyata keçirilmə mexanizminin işlənilməsi; 3) yeniyetmələr və gənclərdən ibarət cinayətkar dəstələrin kriminal fəaliyyətinin qarşısının alınmasına istiqamətlənmiş tədbirlər kompleksinin hazırlanması; 4) böyük şəhərlərin ayrı-ayrı rayonları üzrə inzibati məsuliyyət doğuran xuliqanlıq, oğurluq və sair kimi hüquqpozmaları törətmiş şəxslər (xüsusən də yeniyetmələr) üzərində sosial nəzarətin gücləndirilməsi kimi tədbirlər xüsusi olaraq qeyd edilməlidir.

Regional cinayətkarlığın profilaktikası, bu ərazi vahidində kriminoloji şəraitin kompleks, sistemli şəkildə öyrənilməsini və analitik təhlilini tələb edir.

Kriminoloji şərait qiymətləndirilərkən, sözsüz ki, cinayətkarlığın inkişafının əsas meyllərini müəyyən etmək vacibdir. Bu meyllərin aşkar edilməsi üçün cinayətkarlığın və ayrı-ayrı cinayət növlərinin ictimai təhlükəlilik səviyyəsi, yayılma miqyasları, ayrı-ayrı ərazilər üzrə paylanması, hər bir region üzrə qrup halında və mütəşəkkil cinayətkar dəstələr tərəfindən törədilən cinayətlərin səviyyəsi və sair kimi parametrləri təhlil edilməlidir. Məlumdur ki, sosial mühitin müəyyən göstəricilərinin dəyişməsi cinayətkarlığın göstəricilərində müəyyən dəyişikliklər doğurur. Məsələn, həyat səviyyəsinin aşağı düşməsi zamanı tamah cinayətlərinin sayı artır (14, 134-135). Qeyd edək ki, məhz həyat səviyyəsi insanların sosial həyatının bütün sosial ziddiyyətlərin indikatoru qismində çıxış edir. Həyat səviyyəsi və cinayətkarlıq arasındakı asılılığın mövcudluğunu bir sıra xarici ölkə tədqiqatçıları da qeyd edirlər (28, 14).

Kompleks regional profilaktika sistemi cinayətdən zərər çəkən vətəndaşların maraqlarının müdafiəsinin hüquqi və təşkilati xarakterinə üstünlük verilməsinə; vurulmuş ziyanın ödənilməsinin təmininə; əlavə, pullu hüquq-mühafizə xidmətlərinin göstərilməsi və s. məsələlərin həllinə istiqamətlənməlidir.

Cinayətlərdən vurulan ziyanın ödənilməsi üzrə ictimai fondların yaradılması zəruriliyi də xüsusi olaraq qeyd edilməlidir (13, 4-5).

Bu tədbirlərin hazırlanması, həyata keçirilməsi kompleks, fasiləsiz xarakter daşımalı, maddi, elmi, təşkilati və texniki cəhətdən mükəmməl təşkil olunmalıdır. İnformasiya təminatı ilə bağlı məsələlər də yaddan çıxarılmamalıdır.

Hüquq pozuntularının profilaktikasında informasiya önəmli rol oynayır. Bu gün informasiyanın əldə edilməsi və istifadəsinin müasir metodlarına yiyələnmək xüsusilə vacibdir (21, 3-7). Bu prosesin təkmilləşdirilməsinin aşağıdakı yollarını təklif etmək olar: cinayətkarlar haqqında məlumatlarla yanaşı, həm də zərərçəkənlər haqqında viktimoloji informasiyanı özündə daşıyan kriminoloji informasiyanın toplanması, sistemləşdirilməsi və analitik təhlili; cinayətlərin törədilməsinə dəlalət edə bilən hallar barədə daxil olan ərizələrin, siqnalların, vətəndaşların şikayətlərinin tam və vaxtında qeydiyyatının təmini; müasir hüquqi konfliktologiyanın hazırladığı metodikalar əsasında münaqişəli vəziyyətlərin analizi, həmçinin bu halların aradan qaldırılması üzrə təsirli tədbirlərin vaxtında qəbulu; ayrı-ayrı region üçün tipik kriminal davranış növlərinin kriminoloji mahiyyətinin vətəndaşlara geniş şəkildə izah edilməsi (29, 318-319).

Hüquq pozuntularının profilaktikasında statistik informasiyanın toplanması, əməliyyat və izahedici işdə istifadəsi də mühüm əhəmiyyət kəsb edir. Təəssüf ki, bir sıra hallarda belə bir informasiya kifayət edəcək dərəcədə obyektiv olmur. Hesab edirik ki, cinayətkarlıq haqqında bilərəkdən qeyri-obyektiv informasiyanın yayılması və hüquq-mühafizə orqanlarına təqdim edilməsinə görə inzibati, xüsusi hallarda isə cinayət məsuliyyətinin müəyyən olunmasının vaxtı artıq çoxdan çatmışdır. Belə ki, bu cür informasiya qeyd olunan orqanların profilaktik fəaliyyətinə ciddi şəkildə mənfi təsir edə bilər. Müasir informasiya sistemlərinin, ilk növbədə İnternetin verə biləcəyi imkanlardan cinayətlərin profilaktikasında istifadə edilməsinin fəal surətdə araşdırılmasının vacibliyi də qeyd edilməlidir (29, 319).

Kriminoloqlar, regional profilaktikanın elmi əsaslarının işlənib hazırlanması zamanı böyük və xüsusilə böyük şəhərlərdə ümumsosial və xüsusi-kriminoloji profilaktika sisteminin yaradılmasının vacibliyini xüsusi olaraq qeyd edirlər (22; 31, 8).

Böyük şəhərlərdə profilaktik fəaliyyətin planlaşdırılması probleminin aktuallığı onunla şərtlənmişdir ki, onlarda daha konsentrik formada ölkə üzrə cinayətkarlıqla və digər hüquq pozuntuları ilə mübarizənin əsas meylləri (istər pozitiv, istərsə də neqativ) təzahür edir. Böyük şəhərlər kiçik ərazi vahidləri, şəhər və rayonlarla müqayisədə daha dinamik və intensiv inkişaf edirlər və hazırda onlarda cərəyan edən proseslər, mövcud sosial həyat formaları və onların neqativ nəticələri, problemlər və onların həlli üsulları yaxın gələcəkdə ölkənin digər şəhərlərinin də qarşısında duracaqdır. ona görə də böyük şəhərlərdə cinayətkarlıqla və hüquq pozuntuları ilə mübarizə tədbirlərinin planlaşdırılması mühüm metodoloji əhəmiyyət daşıyır (14, 121).

Cinayətkarlığın profilaktikasında kütləvi informasiya vasitələrinin heç də az rol oynamadığına xüsusi diqqət yetirilməlidir. Bunu nəzərə alaraq kütləvi informasiya vasitələrinin hüquq- mühafizə orqanları ilə sıx qarşılıqlı əlaqəli fəaliyyətinin təşkili və həyata keçirilməsi zəruri hesab edilməlidir. Hər bir regionda bu iş aşağıdakı formalarda həyata keçirilə bilər:

- kütləvi informasiya vasitələrində hüquq-mühafizə orqanlarının fəaliyyəti, əhalinin özünümüdafiə vasitələri və metodları ilə bağlı məsələlər üzrə hüquqi təbliğatın və maarifləndirmə işinin təşkili;
- daxili işlər, icra hakimiyyəti orqanlarının, vergilər nazirliyinin, dövlət gömrük komitəsinin və digər dövlət qurumlarının mətbuat xidmətinin rəhbərlərinin və kütləvi informasiya vasitələrinin nümayəndələrinin daimi əsaslarla işləyən müşavirələrinin təşkili;
- regionda cinayətkarlıqla mübarizənin ümumi sistemində antikriminogen ictimai rəyin formalaşdırılması və bu sahədə əhalinin fəallığının artırılması üzrə hazırlanan xüsusi proqramların və fəaliyyət planlarının kütləvi informasiya vasitələrində geniş işıqlandırılması;
- nəşrlərin, radio və televiziya verilişlərinin analizi və ümumiləşdirilməsi, qəzet və jurnal məqalələrinin, digər materialların və çıxışların professional sə-

viyyəsinin yüksəldilməsinə həsr olunmuş kütləvi informasiya vasitələrinin redaktorları ilə hüquq-mühafizə orqanlarının mətbuat xidməti rəhbərlərinin dəyirmi masalarının təşkili;

- hüquq-mühafizə orqanlarının kütləvi informasiya vasitələri ilə qarşılıqlı əlaqəli iş təcrübəsinin öyrənilməsi əsasında dövlət qurumlarının rəhbərləri üçün belə əməkdaşlığın aktivləşdirilməsi və effektivliyinin yüksəldilməsi üzrə tövsiyələrin hazırlanması (29, 314).

Cinayətkarlığın cəmiyyətin «məhsulu», cəmiyyətin inkişafında obyektiv mövcud olan, köklü dəyişikliklər və qeyri-sabitlik dövründə xüsusilə kəskinləşən ziddiyyətlərin nəticəsi olduğunu nəzərə alsaq, onda cinayətlərin səbəb və şəraitlərinin tam şəkildə aradan qaldırılması, kriminal əməllərin kökünün kəsilməsi vəzifəsi qeyri-real görünür. cəmiyyət, dövlət qaçılmaz sosial hadisə kimi cinayətkarlığın mövcudluğu ilə barışmağa məcburdur. Lakin istər dövlət, istərsə də cəmiyyət qüvvə və imkanları hüdudunda cinayətkarlığı məhdudlaşdırmaq, bu neqativ sosial-hüquqi hadisənin inkişaf meyllərinin qarşısını almaq, onun ən dağıdıcı meyllərini dəf etmək, onu doğuran səbəb və şəraitlərə təsir etmək, cinayətkar qəsdlərdən vətəndaşları və ictimai maraqları qorumaq iqtidarındadır (9, 119).

Əlbəttə, hazırkı vəziyyətdə, xüsusilə dünyada baş verən iqtisadi böhran şəraitində cinayətkarlığa qarşıdurma sahəsində dövlətin imkan və qüvvələri hüdudsuz deyildir. Lakin müasir şəraitlərdə də dövlətin hazırda mövcud olan şərtlərdə ən effektiv şəkildə fəaliyyət göstərə bilməsinin bir sıra istiqamətləri mövcuddur (32, 33-35).

Regionda cinayətkarlığın qarşısının alınması üzrə fəaliyyət konsepsiyasının əsası qismində regional cinayətkarlığın determinantlarının öyrənilməsi, cinayət qanunvericiliyinin tətbiqinin təkmilləşdirilməsi, cinayətkarlığa qarşıdurma üzrə ümumsosial və xüsusi tədbirlər sisteminin yaradılması bazasında regional cinayətkarlığın proqnozlaşdırılması və profilaktikası üzrə kompleks xarakter daşıyan strateji proqramların, fəaliyyət planlarının işlənib hazırlanaraq həyata keçirilməsi çıxış edir.

Digər tərəfdən o da aydındır ki, kriminal vəziyyətin elmi proqnozlaşdırılması olmadan onun elmi idarə olunması, regional cinayətkarlığın effektiv profilaktikası da qeyri-mümkündür. İdarəetmə mexanizminin əsasında isə planlılıq durur. son nəticədə kriminoloji proqnoz cinayət və kriminoloji siyasət sahəsində idarəetmə qərarlarının qəbulu üçün zəruri olan material verir. cinayətkarlığın qarşısının alınması proqramı isə bu növ qərarların qəbulunun bilavasitə nəticəsi kimi çıxış edir. Kriminoloji proqnozlaşdırma bu idarəetmə prosesinin hansı mərhələlərdən ibarət olacağını müəyyən etməyə və hər bir mərhələdə həyata keçiriləcək zəruri tədbirlər məcmusunu işləyib hazırlamağa imkan verir.

Kriminoloji proqnozlaşdırmanın predmeti olaraq ilk növbədə obyektiv olaraq inkişaf edən cinayətkarlıq kimi ictimai-təhlükəli hadisə çıxış etdiyindən, bu növ proqnozlaşdırma cinayətkarlığın gələcək vəziyyəti, strukturu, dinamikası haqqında informasiya almağa kömək edir, onun meyllərini və inkişaf qanu-

nauyğunluqlarını müəyyən edir. Başqa sözlə, kriminoloji proqnozlaşdırma regionda cinayətkarlığın qarşısının alınması prosesinin idarə edilməsinə kömək edən metod olmaqla, hüquq-mühafizə orqanlarını zəruri proqnostik informasiya ilə təmin edir (9, 125).

Regional cinayətkarlığın qarşısının alınması üzrə fəaliyyətin məqsədi, vəzifələri və məzmunu iqtisadiyyat, hüquq, ideologiya, sosial həyat və sair sahələrdə baş verən dəyişikliklərdən, cinayətkarlığın vəziyyəti və meyllərindən asılı olaraq formalaşır. Bu halların daimi analizi, qarşısıalınma siyasətinin məqsəd və vəzifələrinin korrektə edilməsi, onun reallaşdırılmasının taktikasının müəyyən edilməsi, cinayətkarlığa qarşıdurma və profilaktika üzrə tədbirlərin müəyyən edilməsi üçün istifadəsi zəruridir (9, 127-128). Bunu C.S.Əhmədov da qeyd edir və yazır ki, «cinayətkarlıq çoxlu sayda hadisə və proseslərlə bağlı olduğundan önləmə işinin qurulması üçün onların monitorinqi, kriminogen hadisə və proseslərin daimi izlənməsi və qiymətləndirilməsi, əhalinin kriminallaşma və viktimizasiya dərəcəsinin müəyyən edilməsi, cinayətkarlığın vəziyyət və dinamikasının fasiləsiz proqnozlaşdırılması üçün əldə olunmuş informasiyalardan istifadə edilməsi zəruridir» (2, 250).

Xeyli ehtiyatlara, güclü iqtisadiyyata, şaxələnmiş geniş infrastruktur şəbəkəsinə, yüksək ixtisaslı kadrlara malik olan güclü dövlətin demokratik hüquq institutlarının yaradılması imkanları yüksəkdir. Bu zaman olduqca böyük maddi-texniki və digər məsrəflər tələb edən sosial profilaktikanın, çətin maddi-psixoloji şəraitlərdə böyüyən yeniyetmələrə və evsiz-eşiksiz ailələrə yardım üzrə proqramların reallaşdırılması imkanları da yaranacaqdır. Başqa sözlə, iqtisadi cəhətdən inkişaf etmiş və varlı cəmiyyət ehtiyacı olan vətəndaşlarının sosial müdafiəsinin yüksəldilməsi məsələlərini həll etmək iqtidarındadır.

Beləliklə, regional cinayətkarlığın kompleks tədqiqi, proqnozlaşdırılması və profilaktikası kimi son dərəcədə mürəkkəb, çoxaspektli və çətin vəzifələrin həllinin müasir mərhələsində meydana çıxan elmi-nəzəri və praktiki problemlər həmin vəzifələrin kompyuterləşdirilmiş həllinin vahid metodoloji, təşkilati-texniki və hüquqi əsaslarının, bu sahədə informasiya və metodiki təminatının yaradılması məqsədilə elmi biliklərin inteqrasiyasını, kompleks xarakter daşıyan məsələlərin həllinə kibernetikanın və sistemli analizin, informasiya nəzəriyyəsinin metod, üsul və vasitələrinin, müasir informasiya-kompüter texnologiyalarının tətbiqini tələb edir. Bunlar da məcmu halda regional cinayətkarlığın vəziyyəti, struktur və dinamikasının statistik-kriminoloji analizi, ölkənin ayrı-ayrı regionları üzrə etibarlı və obyektiv statistik məlumatların alınmasını təmin etməklə, regional cinayətkarlığın proqnozlaşdırılması və qarşısının alınması problemini yüksək keyfiyyətlə və ən effektiv şəkildə həll etməyə imkan yaradır (6, 36).

Bir sözlə, hazırda qarşımızda dövlətin və vətəndaş cəmiyyətinin imkanlarını inteqrasiya edən, müasir sosial-iqtisadi və hüquqi şəraitlərə, qloballaşan dünyaya adekvat cavab verən cinayətkarlığın qarşısının alınmasının yeni konseptual modelinin işlənib hazırlanması kimi ciddi analitik, təşkilati və təbliğat işi durur.

## ƏDƏBİYYAT


1. Ağayev F. Dinlə bağlı cinayət əməlləri ilə mübarizə problemləri. Bakı: 2007
2. Əhmədov C.S. Tamah motivi ilə qəsdən adamöldürmə cinayətləri (cinayət-hüquqi və kriminoloji aspektlər). Bakı: 2005
3. Mövsümov F., Mansurov V Kriminologiya: Dərs vəsaiti. Bakı: 2011
4. Rəhimov İ.M. Cinayət və cəzanın fəlsəfəsi. Bakı: 2014
5. Rəhimov İ.M., Həsənov E.E., Abdullayev Y.S., Cavadova İ.A. Cinayətkarlıq və kibernetika. Bakı: 1995
6. Səməndərov F.Y. Kriminologiya. ümumi hissə. Bakı: 2003
7. Zahidov B. Azərbaycanda narkotizmlə və narkobizneslə mübarizənin aktual problemləri. Bakı: 2007
8. Zahidov B.S. Qısqanclıq motivi ilə qəsdən adam öldürmə, onun cinayət-hüquqi və kriminoloji problemləri. Bakı: Hüquq ədəbiyyatı, 1998
9. Абызов К.Р Проблемы криминологического прогнозирования и предупреждения региональной преступности (по материалам Сибирского федерального округа). Диссерт.. .к.ю.н. М.: 2004
10. Алексеев А.И. Криминология: Курс лекций. М.: 1998
11. Антонов А.Д. Теоретические основы криминализации // «Черные дыры» в Российском законодательстве. М.: 2002, № 2, с. 87
12. Блувштейн Ю.Д., Зырин М.И., Романов В.В. Профилактика преступлений. Минск, 1986
13. Вандышев А., Овчинский В. Стратегия профилактики // Советская юстиция. 1981, №1, с. 4-5
14. Ваничкин Д.Е. Криминологическая характеристика и предупреждения преступности в регионе (на материалах Ставрапольского края). Диссерт....к.ю.н. Ставрополь, 2004
15. Гилинский Я.И. Криминология. Курс лекций. СПб.: Питер-Пресс, 2002
16. Даньшин И.Н. Актуальные вопросы предупреждения преступности // Вопросы борьбы с преступностью. М.: 1988, в. 47, с.106
17. Кивич Ю.В., Лебедев С.Я. Предупреждение преступности органами внутренних дел. М.: 1998
18. Криминология / Под ред. А.И.Долговой. М.: 2002
19. Криминология: Учебное пособие / Под ред. Н.Ф.Кузнецовой. М.: 1996
20. Кудрявцев В.Е. Стратегия борьбы с преступностью. М.: 2003
21. Лопатин В.Н. Информационное общество и правовое государство. М.: 1997
22. Лунеев В.В. Преступность XX века. Мировые, региональные и российские тенденции. М.: 1997
23. Лунеев В.В. Тенденции преступности: мировые, региональные, российские // Государство и право. 1993, № 5, с. 7
24. Марцев А.И., Максимов С.В. Общее предупреждение преступлений и его эффективность. Томск, 1989
25. Миньковский Г.М. О задачах и путях совершенствования научного обеспечения уголовно-правовой борьбы с преступностью // Методологические проблемы уголовно-правового регулирования общественных отношений / Под ред. И.И.Карпеца. М.: 1989, с.12
26. Миньковский Г.М. Предмет криминологической профилактики преступлений и некоторые проблемы ее эффективности // Вопросы борьбы с преступностью. Вып.17. М.: 1972, с.17
27. Осипов П.П., Исмаилов И.А. и др. Комплексное изучение системы воздействия на преступность. Л.: 1978

28. Преступность и уровень жизни. М.: 1982
29. Ростов К.Т. Методология регионального анализа преступности в России. Диссерт.... докт. юрид. наук. СПб.: 1998
30. Сахаров А.Б. Социальная система предупреждения преступлений // Советское государство и право. 1972, №11
31. Сыров А.П. Планирование социального развития особо крупного города и проблемы профилактики преступности // Вопросы профилактики правонарушений в особо крупном городе. М.: 1981, с. 8
32. Харитонов А.Н. Государственный контроль над преступностью (вопросы теории). Автореф. дисс.... докт. юрид.наук. Н.Новгород: 1997.

## ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ И ОСОБЕННОСТИ ПРЕДОТВРАЩЕНИЯ (ПРОФИЛАКТИКИ) РЕГИОНАЛЬНОЙ ПРЕСТУПНОСТИ

**Н.Т.АЛИЕВ**

**РЕЗЮМЕ**

В научной статье рассмотрены основные особенности и направления общесоциальной и специальной криминологической профилактики предотвращения преступности на региональном уровне в Азербайджане. Были определены основные принципы общесоциальной и специальной криминологической профилактики региональной преступности, проведен анализ сущности данных принципов. Автором уделено особое внимание изучению комплекса основных мер, направленных на предотвращение региональной преступности на общесоциальном и специальном криминологическом уровне.

**Ключевые слова:** региональная преступность, социальный контроль, стратегия, региональная профилактика, основные направления профилактики региональной преступности, общесоциальная и специальная криминологическая профилактика региональной преступности, принципы профилактики региональной преступности

## MAIN DIRECTIONS AND FEATURES OF PREVENTING REGIONAL CRIME

**N.T.ALIYEV**

**SUMMARY**

In this scientific article, the prevention of crime in Azerbaijan at the regional level, the main directions and characteristics of general social and special criminological prophylactics and its prevention were reviewed. The main principles of general social and special criminological prophylactics of regional crime were defined and the essense of these principles has been analysed. The author paid special attention to the study of a set of core measures aimed at preventing crime at the regional and common-social and special criminological levels.

**Keywords:** regional crime, social control, strategy, regional prevention of crime, the main directions of the regional crime prevention, prophylactics of special - criminological and general social regional crime, the principles of regional crime prevention